DÖVLƏTÇİLİYİN,
MİLLİ MARAQLARIN
VƏ TƏHLÜKƏSİZLİYİN

# QARANTI



66.3(5Aze)8
Д 83

"Dövlətçiliyin, milli maraqların və təhlükəsizliyin Qarantı"
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2015, 380 səh.

ISBN 978-9952-498-77-6

Məsləhətçi – Milli Təhlükəsizlik naziri general-polkovnik Eldar Mahmudov

Redaksiya heyəti: Fərhad Vahabov
Arif Babayev

"Dövlətçiliyin, milli maraqların və təhlükəsizliyin QARANTI" kitabı Azərbaycanın suverenliyinin, müstəqilliyinin və mənafelərinin qorunmasına, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə və nüfuzunun artmasına, milli tarixi yaddaşın və mənəvi irsin mühafizə edilərək gələcək nəsillərə çatdırılmasına, habelə mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında yüksək əməkdaşlıq formatının təşəkkülünə, ümumən, respublikanın siyasi, iqtisadi və sosial həyatının bütün sahələrində güclü inkişafa nail olan, Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla və inamla davam etdirən müdrik rəhbər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin təhlükəsizliyi, tərəqqisi və qüdrətlənməsi naminə məqsədyönlü və yorulmaz fəaliyyətindən bəhs edir.

Kitabda həmçinin Prezident İlham Əliyevin Milli Təhlükəsizlik Nazirliyinə göstərdiyi diqqət və qayğı, bu qurumun əməkdaşlarına verdiyi yüksək dəyər, milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı fərman və sərəncamları, çıxışları, nitqləri öz əksini tapmışdır.

Şərq East Qərb West "Şərq-Qərb" Nəşriyyat Evi BAKI 2015
www.eastwest.az
www.fb.com/eastwest.az
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2015

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ

- 16424 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# SİYASİ OLİMPƏ APARAN YOL VƏ MÜDRİK LİDER

Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatının elə bir sahəsi yoxdur ki, orada Ulu öndər Heydər Əliyevin izi olmasın. İstər respublikaya birinci dəfə rəhbərlik etdiyi, habelə Sovetlər İttifaqının rəhbərliyində təmsil olunduğu dövrlərdə, istərsə də xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdığı dövrdə Heydər Əliyev daim Azərbaycanın inkişafına və güclənməsinə çalışırdı. Uzaqgörən və kamil siyasətçi, dərin analitik zəkaya malik insan və peşəkar əməliyyatçı kimi o dünyada gedən prosesləri və onların mümkün nəticələrini öz fəhmi ilə görür, gələcəyin planlarını hazırlayırdı. Məhz gələcək müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətini yaratmağa, müvafiq kadr potensialını formalaşdırmağa çalışırdı.

Ulu öndərin ötən əsrin 50-ci illərinin ortalarından başlayaraq təhlükəsizlik orqanlarının milliləşdirilməsi üzrə səyləri, 60-cı illərin sonlarında ölkəyə rəhbərliyə başladıqdan sonra Azərbaycanın iqtisadi baxımdan keçmiş SSRİ-in ən inkişaf etmiş respublikalarından birinə çevrilməsinə, müasir infrastrukturun və elmi-texniki bazanın, elmi və hərbi kadr potensialının yaradılmasına nail olması və bu işi daimi diqqət mərkəzində saxlaması Heydər Əliyevin nə dərəcədə xalqına, Vətənə bağlılığından və sevgisindən, onun dühasından və fenomenal keyfiyyətlərindən, dünyanın ən məşhur dövlət xadimləri və siyasətçiləri ilə bir sırada durmasından xəbər verirdi.

Qeyd etdiyimiz dövrlərdə respublikada yüngül və ağır sənaye, kənd təsərrüfatı inkişaf etmiş, iqtisadi, hərbi və elmi sektorda xeyli sayda müasir tələblərə cavab verən müəssisələr qurulmuşdu. Ölkə xaos vəziyyətindən çıxarılmış, möhkəm dövlət intizamı, hüquqi və demokratik inkişafın əsasları yaradılmış, neft və təhlükəsizlik strategiyaları işlənib hazırlanmış, müstəqilliyin və dövlətçiliyin əbədiliyinə sarsılmaz təməllər qoyulmuşdur.

Xalqımızın dahi oğlu Heydər Əliyevin gələcəyə hesablanmış dövlətçilik siyasətində insan faktoru, insan kapitalı həmişə əsas yer tutmuşdur. Hər şey xalq üçün, hər şey insan, inkişaf və firavanlıq üçün prinsipi onun həyat kredosu idi. Bu baxımdan, Ulu öndərin nəzəri və praktiki fəaliyyətində insanı cəmiyyətə və dövlətə xidmət üçün hazırlamaq, vətənpərvər, elmli, səriştəli və peşəkar kadrlar yetişdirmək başlıca prinsiplər idi. Bu gün müstəqil Azərbaycanı bütün sahələrdə layiqincə təmsil edən şəxslərin, elmi-mədəni, iqtisadi-texniki və hərbi sahələrdə pleyadanın mövcudluğu Ümummilli lider Heydər Əliyevin titanik səylərinin, xalqa xidmətin əsl nümunəsinin nəticəsidir.

Ulu öndərin bu mühüm strateji proyektində ən vacib, müqayisəolunmaz yer onun layiqli siyasi varisi və davamçısı, bütün vətənpərvər azərbaycanlıların sevimlisi və lideri möhtərəm Prezidentimiz İlham Əliyevə məxsusdur. Daim Ulu öndərin yanında olmaq, onun məktəbini keçmək, xalqa xidmət təcrübəsini öyrənmək, idarəçilik və təşkilatçılıq vərdişlərinə yiyələnmək, gələcəkdə bunu öz dövlətçilik fəaliyyətində uğurla tətbiq etmək şərəfi və məsuliyyəti artıq müstəqillik illərində çalışdığı və tapşırılan bütün sahələrdə şəxsi və liderlik keyfiyyətləri ilə fərqlənən İlham Əliyevə nəsib olmuşdur.

Ümummilli lider Heydər Əliyev hələ Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə, 1970-ci illərin sonlarından etibarən artıq gənc yaşlarından İlham Əliyev rayonlara səfərləri, toplantılarda və görüşlərdə iştirakı zamanı onu müşayiət edirdi. Bu səfərlər vaxtı İlham Əliyev kənd təsərrüfatı, sənaye sahələrindəki problemlərlə, onların inkişaf prosesləri ilə, burada çalışan sadə insanlarla, eləcə də Heydər Əliyevin sosial-iqtisadi həyatın bütün sektorlarında işin təşkilinə yanaşma üsulu ilə tanış olurdu. Onda torpağa, Vətənə bağlılıq hisləri daha da möhkəmlənir, ölkə həyatının həssas, zəif və güclü yerlərini bilmək, problemlərin həlli yollarını öyrənmək, elm adamları və zəhmətkeşlərlə təmas qurmaq vərdişləri formalaşırdı.

Bütün bunlar, eləcə də sonrakı dövrlərdə aldığı yüksək diplomatik təhsil, dünya şöhrətli təhsil müəssisəsində pedaqoji fəaliyyəti, daha sonra müstəqil Azərbaycanda çalışdığı mühüm sahələr, bu sırada Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Dövlət Neft Şirkətində və Milli Olimpiya Komitəsində rəhbər vəzifələrdə işləməsi onun gələcəkdə dövlət lideri kimi formalaşmasına hərtərəfli təsir göstərən amillərdəndir. Azərbaycanın neft strategiyasının hazırlanmasında, ölkədə idmanın böyük sıçrayışla, sürətlə inkişafında, qazanılan önəmli qələbələrdə, idman sferasının genişlənməsində, bütün bölgələrdə olimpiya komplekslərinin tikilməsində, respublikanın tədricən beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməsində, ümumən, dünyada tanınmasında İlham Əliyevin misilsiz xidmətləri olmuşdur.

İlham Əliyevin gələcək dövlət xadimi, ölkə rəhbəri kimi formalaşmasında və uğurlu fəaliyyətində peşəkar xüsusi xidmət orqanı əməkdaşı və rəhbərinin ailəsində anadan olması, böyüməsi və tərbiyə alması mühüm rol oynamışdır. Burada hərbçi intizamı, prinsipiallığı və tələbkarlığı təsirsiz ötüşməmişdir. Xüsusi xidmət orqanı ölkənin həyatının bütün sahələrində dövlətçilik mənafeyinin, milli maraqların qorunmasında, təhdidlərin müəyyən edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində birbaşa və fəal iştirak edir. Heydər Əliyev kimi fitri istedada malik insanın belə bir qurumda çalışması və ona rəhbərlik etməsi isə xüsusilə önəmli hadisədir. Heydər Əliyevin ailəsində böyüməsi, tərbiyə alması İlham Əliyevin güclü, xarizmatik şəxsiyyət kimi yetişməsinə müsbət təsir göstərən mühüm faktor olmuşdur.

Ümummilli lider Heydər Əliyevin ümid və proqnozlarını doğrultmuş, ulu öndərin siyasi kursunun layiqli varisi, ölkəmizin müdrik rəhbəri kimi İlham Əliyev xalqının mütləq və sarsılmaz etimadını qazanmışdır.



Təhlükəsizlik və sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Bu sadə həqiqəti Ulu öndər kimi, möhtərəm Prezidentimiz də fəaliyyətində rəhbər tutmuşdur.

Dövlət başçısı cənab İlham Əliyev prezident seçildiyi ilk vaxtlardan ona doğma olan milli təhlükəsizlik orqanlarına daim xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Möhtərəm Prezident bu orqanların normativ-hüquqi, maddi-texniki bazasının və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi üzrə ardıcıl qərarlar qəbul etmiş və konkret tədbirlər həyata keçirmişdir. Hazırda Milli Təhlükəsizlik Nazirliyi peşəkar kadr potensialına, beynəlxalq hüquq yaradıcılığının ən müsbət təcrübəsini mənimsəməklə daim təkmilləşən normativ-hüquqi və güclü maddi-texniki bazaya malikdir. Şəxsi heyət yüksək sosial qayğı ilə əhatə olunmuş, normal iş şəraiti ilə təmin edilmişdir.

Hər bir azərbaycanlının Prezidenti, hamıya əziz olan cənab İlham Əliyev milli təhlükəsizlik orqanlarının əməkdaşları üçün həm də ona görə doğmadır ki, o Azərbaycan təhlükəsizlik orqanlarının əzəli və fəxri rəhbəri Ümummilli lider Heydər Əliyevin oğludur və Silahlı Qüvvələrin Ali Baş Komandanıdır.

Möhtərəm Prezident demişdir: "Bu gün Milli Təhlükəsizlik Nazirliyi öz inkişaf dövrünü yaşayır. Vətənpərvər, öz Vətəninə, Azərbaycanın müstəqilliyinə bağlı olan nazirliyin əməkdaşları öz üzərinə düşən funksiyaları çox şərəflə, ləyaqətlə yerinə yetirir, sabitliyin təmin olunması üçün öz dəyərli töhfələrini verirlər".

Milli təhlükəsizlik orqanlarının şəxsi heyəti dövlət başçısının bu yüksək etimadını daim doğrultmaq, Ali Baş Komandanın sadiq əsgərləri kimi onun hər bir əmrini dərhal və qüsursuz yerinə yetirmək əzmindədir.

# Milli təhlükəsizlik tariximizdə irs və varislik

*Ümummilli lider Heydər Əliyev gənc yaşlarından öz taleyini təhlükəsizlik orqanları ilə bağlamışdır. Ən kiçik vəzifədən Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə yüksəlmiş, general rütbəsini almışdır və Azərbaycanın tarixində ilk dəfə Dövlət Təhlükəsizlik Komitəsinə azərbaycanlı rəhbərlik etməyə başlamışdı. Bütün işlədiyi dövr ərzində Heydər Əliyevin fəaliyyəti doğma xalqına xidmət etməkdən ibarət olmuşdur. Onun bütün fəaliyyəti milli maraqlarımızın qorunmasına yönəldilmişdi və Azərbaycan xalqının maraqlarına xidmət edirdi.*

**İlham ƏLİYEV**





2-ат

## ДОПОЛНИТЕЛЬНЫЙ СПИСОК

зачисленных детей в среднюю муз.школу в 1969/70 учебном году

I. АЛИЕВ Ильгам
I класс фортепиано

2. АЛИЕВА Нигяр
I класс фортепиано

3. БАБАЕВ Мурад — сын сотрудника КГБ
I класс фортепиано

4. МЕХТИЕВ Фуад — сын директора АзИНТИ
подготовит.фортепиано

5. АДАМОВА Лариса — дочь сотрудн.КГБ
7 класс фортепиано

6. ГУСЕЙНОВ Станислав — сын сотрудн.МВД
I класс аккордеон

7. ГЕОРГИЕВА Светлана — дочь рабочего шинного завода
8 кл.скрипка

8. АЛИЕВА Нигяр — дочь преподавателя Азгосконсерватории
4 класс фортепиано

9. КУЛИЕВА Аида — дочь сотрудника КГБ (Али-Байрамлы)
2 класс фортепиано

I0. ГЕОРГИЕВА Надежда — дочь рабочего шинного завода
4 класс виолончель

II. АПРИКОВА Марина — дочь сотрудницы Госплана (ст.инженер)
4 кл.фортепиано

I2. КАРАСЕВА Илона — дочь сотрудника КГБ
I класс фортепиано

I3. ЯНОВИЧ Светлана — дочь военнослужащего погранвойск
3 класс фортепиано

I4. ЮСУФОВ Эльдар — пл.педагога муз.школы т.Раджабовой. Отец зам. министра связи.
I класс скрипка

I5. МАМЕДБЕКОВ Самир — сын педагога школы № 240
I класс скрипка

I6. БЕРГАРТ Илья — сын ст.научного сотрудника ВНИИПТ Нефтемаш
I класс скрипка

17. Копылова Таня — дочь военнослуж. в/ч 2435 КГБ
2класс ф-но

ДИРЕКТОР СРЕДНЕЙ МУЗЫКАЛЬНОЙ ШКОЛЫ
КГБ ПРИ СМ АЗЕРБАЙДЖАНСКОЙ ССР

(подпись) (МАМЕДОВА)

---

**Клуб работников КГБ Азербайджанской ССР**

**Средняя музыкальная школа**

19 69 — 19 70 учебный год.

## СВЕДЕНИЯ ОБ УСПЕВАЕМОСТИ

ученика 1 класса

специальность ф-но

Алиева Ильгама
(фамилия и имя ученика)

Мамедовой Н.С.
(фамилия и имя педагога)

| НАЗВАНИЕ ПРЕДМЕТА | Оценка успеваемости по четвертям | | | | Экзаменационная оценка | Итоговая оценка |
|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | | |
| Специальность | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| Сольфеджио | — | 5 | 4 | 5 | | 5 |
| Муз. литература | — | | | | | |
| Элем. теория | — | | | | | |
| Хоровой класс | — | | | | | |
| Гармония | — | | | | | |
| Общее фортепиано (Поведение) | 5 | 5 | 5 | 5 | | 5 |
| Выступление на вечерах | | | | | | |
| Число пропущенных уроков по специальности | | | | | | |
| Число пропущенных уроков по теоретическим предметам | | | | | | |
| Подпись педагога | (подпись) | (подпись) | (подпись) | (подпись) | | (подпись) |
| Подпись родителей | | | | | | |
| Решение педагогического совета | | | | | | |

Директор (подпись) Зав. учебной части (подпись) Преподаватель по спец. (подпись)

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

